# "Azərenerji" Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı konfrans təşkil etdi

## Tədbirdə Zərifə xanım Əliyeva da hörmət və ehtiramla anıldı







Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı olaraq "Azərenerji" Ümummilli Liderin şah əsərlərindən sayılan və 40 ildən artıq vaxt keçməsinə baxmayaraq, hələ də Qafqazın ən böyük istilik-elektrik stansiyası titulunu qoruyub saxlayan Mingəçevirdəki "Azərbaycan" İES-də geniş tədbir keçirib.



Öncə "Azərenerji", "Azərişıq" və Mingəçevir rayon rəhbərliyi Ulu Öndərin "Azərbaycan" İES-in həyətində ucaldılan abidəsinin önünə gül dəstələri qoyub.

Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, daha sonra Ulu Öndərin Azərbaycan elektroenergetika sahəsində həyata keçirdiyi misilsiz fəaliyyətinə həsr edilən sərgi nümayiş olunub.

Xatırladaq ki, Ulu Öndərin təşəbbüsü ilə tikilən 2400 meqavatlıq "Azərbaycan" İES cənab Prezident İlham Əliyevin sərəncamı ilə tam yenidən qurulub və tədbirin əsas hissəsi də yenidənqurmadan sonra yeni tikilən İdarəetmə Mərkəzinin akt zalında keçirilib. Tədbirin əvvəlində Ulu Öndər Heydər Əliyevin, görkəmili oftalmoloq Zərifə xanım Əliyevanın və Vətən müharibəsi şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Daha sonra Ulu Öndərin elektroenergetika sahəsində gördüyü işlərə dair "Azərenerji" tərəfindən hazırlanmış film nümayiş olunub.

"Heydər Əliyevin milli energetika siyasəti və müasir transformasiyalar" mövzusunda keçirilən konfransda "Azərenerji" nümayəndələri, akademik və professorlar, Mingəçevir şəhər rəhbərliyi, millət vəkilləri, müharibə veteranları çıxış edərək Ulu Öndərin həyata keçirdiyi uğurlu fəaliyyətindən danışıblar.

Tədbirin sonunda 1981-ci il oktyabr ayının 20-də "Azərbaycan" İES-in açılış mərasimində iştirak edən və elektroenergetika sahəsində səmərəli fəaliyyət göstərən "Azərenerji"nin bir qrup əməkdaşına xatirə plakatlar təqdim olunub. Eyni zamanda qonaqlara Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilən və cənab Prezidentin sərəncamı ilə yenidən qurulan "Azərbaycan" İES haqqında nəşr edilən "Bərpa olunan miras" kitabı təqdim edilib.

Azərbaycan.- 2023.-29 aprel.- S.9.